# "The Guardian"ın redaktoru: "Biz artıq Bakıda keçiriləcək COP29 kimi mühüm tədbirə hazırlaşırıq"




**"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çox vacib bir vaxtda keçirilir və mühüm əhəmiyyət kəsb edir.**

Azərbaycan bu il daha bir mühüm tədbirə - COP29-a evsahibliyi edəcək. Biz hamımız artıq bu mühüm tədbirə hazırlaşırıq". Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı, "The Guardian" qəzetinin ətraf mühit üzrə redaktoru Fiona Harvi deyib.

F. Harvi forum çərçivəsində iqlim dəyişiklikləri məsələləri ilə bağlı mühüm çıxışları dinlədiyini də diqqətə çatdırıb.

---

Azərbaycan.- 2024.- 4 may, № 91.- S.11.